# Nəcib Fazil - işıq tərənnümçüsü



Ruh yaxınlığını qan yaxınlığından önəmli sayırdı Mevlana. Bu mənada ruh doğmalığımızın, yaxınlğımızın ən etibarlı bağlarındandı Nəcib Fazil Qısakürəyin poeziyası. O səbəbdən ki, "tale bəyaz kağıza südlə yazılmış yazı", "bir qarışqa aparır haqqa məni" düşüncəsi ondan gəlir. "Gördüyüm deyildi bildiyim dünya" təəssüfü, acısı hər bir oxucunu Nəcip Fazilə daha yaxınlaşdırır. Və onun şeirləri haradasa zamanın aynası kimi yaddaşı özünə çəkir, fikri, düşüncəni əks etdirir:

*Bu yağış, bu yağış*
*bir gün kəsəndə*
*Aynalar üzümü tanımaz olur.*

Onun poeziyasında hər bir oxucuya daha doğma və əziz olan, oxucunu daha çox çəkən onun şeirlərindəki intizar, nigaranlıq duyğusunun hər kəsə doğma, tanış olmasıdı. N.Fazil bu nigaranlığı, intizar, həsrət titrəyişini bütün hallarda ən kövrək, titrək məqamları ilə qələmə alır. Onun şeirləri oxunub bitdiyi yerdə qalmır; daha çox hafizələrdə, hər kəsin düşüncəsində xəyalında davam edir, alınan hər nəfəsə, baxışa keçir. Elə ilk misradaca hiss edirsən ki, bax, bu eyni zamanda da sənin özünün intizarının, həsrətinin şəkillənmələri, sözlə, şeirin İlahi dili ilə ifadəsidi.

Nəcib Fazil üçün əsl şeir ilk növbədə sonu bilinməz, dibinə varılmaz, heç bir çərçivəyə sığışmayan iç düşüncələrinin, eləcə də sirr altında sirr, soydaş amalını, dünya işdəklərini rəmzi və sirri mahiyyətində ifadə edən ülvi bir idrak məqamı idi. Və mübahisəsiz bir yozumdur ki, dərkolunmaz sirr xəzinəsi aləmində onun öz poetik şeir məcrasında döydüyü qapılardan biri, bəlkə də birincisi yalqızlıq, tənhalıq duyğusudur. Eyni zamanda bu yalqızlıq duyğusunun yaşantılarından irəli gələn iztirab hissi Nəcib Fazil yaradıcılığının xüsusi bir ehtiyacla döydüyü qapı kimidi. Onun təsvir etdiyi ədəbi qəhrəman ilk növbədə bu intizarı və iztirabı ilə xoşbəxtdi. Nəcib Fazil türkiyəli araşdırıcı Kamil Eşfak Bərkinin təbirincə desək, şeiri sirrlər dünyası və rəmzlər aləmi kimi qəbul edirdi. O, həyatı fərqli baxış bucağından müşahidə və ifadə edə bilməyin ustası idi. Onun yaradıcılığı hər bir halıyla insanın, onu əhatə edən aləmin iç dünyasına hesablanmışdı.

Təsadüfi deyil ki, türkiyəli ədəbiyyatşünas Mustafa Miyasoğlu Nəcib Fazilin çoxşaxəli yaradıcılığı və bənzərsiz şəxsiyyəti barədə bəhs edərkən, düşüncə və fikir diapozonunun genişliyi baxımından onu Homer, Servantes, Hüqo, Tolstoy və Dostoyevski kimi görkəmli sənətkarlarla bir arada qəbul edir: "Bunların əsərlərilə şəxsiyyətləri və dünyagörüşləri necə bir bütövlük içində isə, Nəcib Fazilin yaradıcılıq və şəxsiyyət bütövlüyü də elədir". O səbəbdən ki, Nəcib Fazilin bir şəxsiyyət və bir şair olaraq da ən böyük amalı, istəyi bəşəriyyətə və yaşadığı cəmiyyətə qənim kəsilən hər cür qaranlıqlardan çıxış yolu aramaq, bu istiqamətdə işığı tapmaq idi. Təbii ki, işığa yol açanların sənət və ömür yolu məhz o dəyər daxilində əxz olunur, o yöndən öyrənilir... Nəcib Fazil bütün yaşamı və yaradıcılıq enerjisi, gücü ilə "çevrə-çevrə nur", çevrə-çevrə aydınlıq, işıq tərənnümçüsü idi. Bu işığa könül açmaq, onu yaşamaq hər bir oxucunu elə o işığın öz amalına, ruhuna bələyir, o işığın, nurun özünə qovuşdurur. Eləcə də Nəcib Fazilə!

**Gülayə**